# POETİK REKVİYEMİN NİKBİN HARMONİYASI

## (Əli Rza Xələflinin epik təhkiyəsi üzərinə)



*Nizami* Məmmədov
***TAĞISOY,***
***ədəbiyyatşünas-tənqidçi, professor***

Azərbaycan bədii-poetik fikrində və qəzet publisistikasında son dərəcə fəal qələm işlədən söz sahiblərindən olan Əli Rza Xələflinin yaradıcılığını ardıcıl izləyənlərdən, yazdıqları ilə bağlı nəzəri-tənqidi fikirlərimizi yeri gəldikcə ədəbi ictimaiyyətə çatdırmağa səy göstərənlərdən biri kimi bu dəfə şairin "Kredo" qəzetində (10 mart 2023-cü il) Türk dünyasının yenilməz lideri Rəcəb Tayyib Ərdoğana həsr etdiyi poema bizi müəllif haqqında yenidən danışmağa vadar etdi. Əslində Əli Rza Xələfli poetik növün bütün janrlarında özünü sınamaqla, fikirlərini hədəfə tuşlamağı bacaran şairlərimizdəndir. Son vaxtlarda onun "Dağlarda duman qaldı" poemalar toplusuna bir "Ön söz"də yazmışdım. 10 müxtəlif mindəricəli və biçimli bu poemalarda o, xalqımızın tarixindən, Qarabağımızın taleyindən, doğma Cəbrayılın etnoqrafik mənzərəsindən, məişətindən, düşmən əlində qalmış yurd yerlərimizin durumundan elə səriştəli və elə ülvi bir məhəbbətlə bəhs etmişdir ki, bu poemalarla bağlı qənaətlərimizi az qala bir nəfəsə ortaya qoymuşduq.

Mübaliğəsiz deyək ki, Əli Rza Xələfli burada poema janrının kələfini elə çözməyə başlayıb ki, onun bu janrda ortaya qoyduqları təqdirəlayiqdir. Əsərdə Türkiyə Cumhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan şairin diqqətini olduqca çeşidli rakurslardan özünə cəlb etmiş, bu böyük siyasi xadimlə bağlı yetərincə kondisiyalı bir araya-ərsəyə gətirmişdir. Şair poemanı ikili anlamda "Türkiyənin zəlzələ ağrıları", "Ərdoğana və Türkiyəyə təskinlik üçün yarıqəm - yarıqürur dastanı" kimi adlandırmış və bildirək ki, bu adlardan hər ikisi əsərin başlıca qayəsini açmağa tuşlanmışdır. Şair Türkiyəmizdə baş vermiş dağıdıcı zəlzələni böyük faciə kimi təqdim edib, onun türk dünyası üçün üzücü təsir bağışladığını göstərməklə, həm Türkiyəyə, həm Ərdoğana, həm də bütün türk dünyasına təskinlik verməklə ona səbir diləyir, qürurlu olmağı arzulayır. Müəllif Türkün Tanrı dağı, Turan, Turan bayrağı, Malatya, Xatay, Kahramanmaraş, Qaziantəp, Alp Ər Tunqa, Bilgə Kağan, Tonyukuk və başqa bu kimi etnonimləri və toponimləri gözümüz önündə canlandıqmaqla bu poetik rekviyemin nikbin ruhlu poema şəklində ortaya qoyulmasında oxucu üçün çox mətləblərdən, türk tarixinin lap dərinliklərindən söz açır, Ərdoğana "Sultanım" deyə müraciət edib, onun qətiyyətini dilə gətirir:

Qətiyyətin yol açır Türkün Tanrı dağına,
İradən işıq saçır Turanın bayrağına...

Dirilər Qaziyantəp, igid qazilər yurdu,
Doğudan Batıyacan ulayar Türkün qurdu -

deyərək inamını nə Türkiyəyə, nə türkə, nə də Ərdoğana qətiyyən səngitmir. Ərdoğanın idarəçiliyindən, qətiyyətindən, türkün gələcəyinə inamdan ağızdolusu bəhs edir:

Ulutürkün səddində basılmaz bir qalasan,
Qardaşlığa ziyarət, inama pir qalasan.
Türkiyənin önündə Turana yol açırsan,
Alp Ər Tonqa ruhuna qəlbindən nur saçırsan.

Bilirik, Ərdoğansan - Bilgə Xaqan gücündə,
Qənim üstə ulayan Bozqurdsan qan gücündə.

Bizə belə gəlir ki, Əli Rza Xələfli poemanı qələmə almamışdan əvvəl Rəcəb Tayyib Ərdoğanın ümumi siyasi-ictimai fəaliyyəti, o cümlədən türk dəyərlərinə, tarixinə sadiqliyi ilə seçilən, yüksək xarizma və idarəçilik qabiliyyəti ilə fərqlənib, nəinki Türkiyə türklərini, həm də dünya türklərini öz inandırıcı ideya və məsləki altında birləşdirməyi bacaran şəxsiyyət kimi onun fəaliyyətinin çeşidli tərəflərini müxtəlif dövrlər üzrə izləyə bilmişdir. Və bütün bunlar poemanın mahiyyətinə uğurla oturdulmuşdur. Amma eyni zamanda poemanın ayrı-ayrı bəndlərində Türkiyəmizin və türklərimizin acısının da əsərin daxilində üzüntülü mənzərəsinin ustalıqla yaradılmasının da diqqətdən kənarda qalmamasını dilə gətirməliyik:

Çaxır ölüm şimşəyi hər canlının başında,
Qəlbimiz Türkiyənin torpağında, daşında.

...İnsanların naləsi ərşə qalxdı, ucaldı,
Türkiyəmiz ağrıdan bircə anda qocaldı.

Fidan-fidan körpəyə dərd bələdin, İlahi,
Neçə-neçə qönçəni qəhr elədin, İlahi.

Dağıntılar altında zarıyan, inləyən var,
Əlcasızlıq içində çırpınan, ünləyən var.

Bu parçalarda müəllif zəlzələnin masştabını bütün ağırlığı və faciəviliyi ilə təsvir edir, dağıntılar




altında qalanların ah-vayını, ününü, iniltisini, həyat uğrunda mübarizəsini, naləsini, ölüm şimşəyinin insanların başında necə çaxdığını görümlü və inandırıcı ifadələrlə oxucusuna çatdırmağa müvəffəq olur.

Əli Rza Xələfli son dövr yaradıcılığında özünün içindən keçənləri poema janrında daha səmərəli əks etdirməyə çalışmaqdadır. Yəqin şairin yaradıcılığı yetkinləşib püxtələşdikcə o, özünü bu janrın qəlibləri içində bundan da sərbəst hiss edəcəkdir.

Əli Rza Xələfli sanki poemanın çeşidli növlərindən də yaxşı xəbərdardır. Məlumat üçün deyək ki, poemanın bir neçə növlərini fərqləndirmək olar: tarixi, tarixi-avtobioqrafik, qəhrəmanlıq, lirik, lirik-publisistik, lirik-dramatik, memuar və s. və i.a.

Poema, hər şeydən öncə, bu və ya digər tarixi hadisələri, mənəvi, sosial-ictimai problemləri əks etdirən poetik üslublu təhkiyə əsəri olmaqla, lap qədim dövrdən gələn yazılı abidələrdəndir. Öz mənşəyi etibarı ilə lirik-epik nəğmələrə gedib çıxan qədim dövrün epik poemalarından hind dastanları "Mahabharata", "Pançatantra", "Ramayana", Homerin "İliada" və "Odisseya"sı, Hesiodun "Zəhmət və günlər", Vergilinin "Eneida"sı, türk xalqlarının "Kitabi-Dədə Qorqud"u, germanların "Nibelunqlar nəğməsi", "Roland haqqında nəğmə", skandinavların "Böyük Edda" və "Kiçik Edda"sı, Nizaminin "Xəmsə"sinə daxil etdiyi poemalar, Dante Aligyerinin "İlahi komediyası", Volterin "Orlean bakirəsi" və digər çoxsaylıların qeyd etmək olar. Eyni zamanda onların xeylisi epik, təsviri, didaktik, romantik, fəlsəfi, tarixi-qəhrəmanlıq, bəzən isə sərgüzəşti hadisələri özündə əks etdirir.

Əli Rza Xələflinin də qədim dövrlərdən ədəbimədəni düşüncəmizə hakim kəsilib adlayan bu janra sevgi ilə yanaşdığını görmək mümkündür. Əli Rzanın özü bəzi epik nümunələrində ("Söz doğrunun, düzündü" sözə fəxriyyə ithaf edir, onu öyür, digərində ("Könlümə yol aradım") fəxriyyə poemanın çeşidli elementlərini ortaya çəkir, bir başqalarında ("Hər ocağın öz işığı", "Bir atanın düz yolu", "Karvan gəlir, yola bax və s.) tarixi olayları, adət-ənənələri, ocağa bağlılığı, etnoqrafik etüdlər şəkilində şairlik hiss və duyğularını epikanın köməyi ilə oxucusuna hədiyyə edir, "Anamın nağılı" və "Bir çinarın hekayəti" və s. kimi əsərlərini isə xatirə - poema üslubunda qələmə almağa üstünlük verir.

Əli Rza Xələflinin "Türkiyənin zəlzələ ağrıları", - "Ərdoğana və Türkiyəyə təskinlik üçün yarıqəm - yarıqürur dastanı"nda yuxarıda qeyd etdiyimiz məqamlarla yanaşı, epik qəhrəmanın emotiv halı özünün yüksək hərəkətliliyi və situativliyi ilə dəyişir. Bu da təbiidir. Çünki insanla onun emosiyaları birbirindən ayrılmazdır. Əgər hətta bir qədər tarixə baş vursaq, emosiyaların hələ nitq olmamışdan əvvəl, jestlər, mimikalar şəklində mövcud olduğunu görərik. Əli Rzaya gəldikdə isə onun özü bir insan və şair kimi son dərəcə emosionaldır. Bunu nəinki biz, həm də onu yaxından tanıyanlar yaxşı bilirlər. Şeirlərini oxuyanda onun emotiv hissləri daha çox coşqun və oyaq olur. O, yaradıcı şəxsiyyət olaraq intellekti, nitqinin yüyrəkliyi, emosionallığı və s. keyfiyyətləri ilə fərqlənməkdədir. Bunu biz şairin Ərdoğana "Sultanım" deyə müraciətində də yaxşı görürük:

Sultanım, qəm eləmə, qəhər səni boğsa da,
İftiralar, böhtanlar yağış kimi yağsa da.

Biz səninlə gedirik Ulu Turan dağına,
Sonuncu dənizəcən türkü soran dağına.

...Azərbaycan bu dərdin ocağında közlənir,
Türkiyənin yanğısı varlığımda sözlənir.

Müəllif Türkiyənin hüznünü Azərbaycanın hüznündən ayırmır. Onların hər ikisi Əli Rza tərəfindən bir qəlbdə iki can kimi təqdim olunur. Türkiyə şəhərlərinin acısı Qarabağ, Şuşa, Gəncə, Kəpəz, Təbriz, Şamaxı, Zəngəzur, Zəngilan ilə eyniləşdirilir. Bizə belə gəlir ki, bu dastan-poema türkün başına gəlmiş təbii bəlalara təkcə rekviyem kimi nəzərdən keçirilməməlidir. Buna görə də müəllif əsəri

Sultanım, əyilmə sən, əyilməz Tanrı dağı,
Yağılara göz dağı - sönməz Türkün çırağı -

kimi hədəfə dəyən türk ellərini ümidləndirən nikbin sonluqla başa çatdırmağa çalışır. Başqa sözlə, biz Əli Rza Xələflinin bu məsnəvisini həm də "nikbin poema" kimi adlandırmaqda israrlıyıq. Əlbəttə, belə təyinin özü sərti olsa da, nədənsə onu biz qeyd etdiyimiz rakursda daha çox qəbul edir, yaxud da onu "nikbin rekviyem" kimi dəyərləndiririk.

Poemanın tematik çevrəsi türk dünyasına, türklərin gələcəyinə nikbin hissləri ifadə etmək baxımından bizi bunları qeyd etməyə sövq edir. Burada heç də müəllifin məsələyə romantik yöndən yanaşması diqqət mərkəzində deyil. Lirik qəhrəmanın gələcəyə, sonsuz uğura can atması sanki içindəki harmoniyanın ifadəsi olaraq səslənir.

Əli Rza Xələflini bu əsərdə yeni uğura imza atması ilə bağlı təbrik edir, ona gələcək epik yaradıcılığında poetik vüsət və orijinallıq arzulayırıq.

2023